# Vətən eşqinə qurban

Vətən sənə oğul dedi, igid əsgər! Evini, ailəni, yurdunu qorumağa səslədi! Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bir çağırışı ilə ayağa qalxan igid balam, düşmən tapdağında inləyən əbədi və əzəli torpaqlarımızı yağılardan təmizləməyin zamanıdır!

Ali Baş Komandanının "İrəli!" əmrini alan,yatağı nəm səngər, yorğanı atəş əsgərim! Ana ürəyim qan ağlasa da, bu məktubu sənə sonsuz qürur hissi ilə yazıram. Namərd düşmən torpağımıza göz dikdi, havadarları onların dəyirmanına su tökdü.

Musiqi beşiyimiz Şuşa, qartallar oylağı Kəlbəcər, ağ evli Ağdam, hər yeri bir səngər olan yalçın qayalı Laçın, Füzuli, Zəngilan, Cəbrayıl, Xankəndi, Ağdərə, Xocavənd... onlarla yaşayış məskənimiz işğalçı düşmənin ayaqları altında inlədi. Xocalını qan içində boğdu xain cəlladlar! Biz səbr, təmkin göstərdik. Dünya qanunlarına ümid bəslədik, sülh, əmin-amanlıq istədik. Çünki xalqımız sülhsevərdir, hansı millətə məxsusluğundan asılı olmayaraq, uşaqların, qadınların, gənclərin, qocaların şəhidliyini, şəhərlərin, kəndlərin viran qalmasını istəmir, əksinə, bütün insanların eyni günəş altında, eyni torpaq üstündə sakit, firavan yaşaması arzusundadır.

Əsgər oğul, biz anaları qınama! Bilirsənmi niyə?.. Sən doğulanda məkrli "hay"lar kimi, qulağınıza "erməni bizim düşmənimizdir" sözünü söyləmədik. Qəlbin sevgi, mərhəmət, məhəbbət nuru ilə dolsun deyə, hətta tarixin faciəli səhifələrindən dəqiq tanıdığımız düşmənin adını da nişan vermədik sənə...



Vətən sevgisi, vətənpərvərlik övladı düşmənçilik ruhunda böyütməklə olmur. Vətən sevgisi saf ana laylası ilə doğulur. Biz sizi gözəl vətənimizə sevgi ilə böyütdük, oğul! Qəlbinizdə nifrətə, kinküdurətə yer olmasın dedik, ruhunuz nurla bəslənsin istədik.

Canım oğul, igid əsgərim, biz analar sizinlə fəxr edirik! Sizin günü-gündən artan, alovlanan vətən eşqinizə qurban olum, deyirik!

Şəhid oğul, sən ölmədin, məğrur ölümünlə düşmənə dərs verdin. Qəlbin susmadı, ruhu göylərdə qürurla dolaşan, nəbzi hər ürəkdə döyünən şəhidim, sən şairin "Torpaq uğrunda ölən varsa, vətəndir" gerçəyini şərəfli ölümünlə - bir daha müqəddəs qanınla möhürləyib təsdiqlədin! Qorxu bilmədin, gənc yaşında ölümün gözünün içinə baxa-baxa döyüşə atıldın!

...Qoy, azğın düşmən tankdan, toptüfəngdən yox, Azərbaycan analarının torpaq, vətən sevgisi ilə böyütdüyü oğulların qəzəbindən qorxsun!

Dözümünə, səbrinə qurban, əsgərim! Otuz ilə yaxın, dur dedik, döz dedik, dözdün! Düşmən anlamadı, dünya anlamadı sülh istəyimizi. "Torpaqdan pay olmaz",- dedik, düşmən olsa belə onun da övlad itkisinə ana ürəyimiz qıymadı.

Dövlət başçısı haqq işimizi dünyaya çatdırsa da, çox qulaqlar kar, çox gözlər kor oldu! Səbr kasamız doldu və daşdı.

Biz qisas istəmirik, müharibə istəmirik, insanlar həyatdan vaxtsız getsin, - istəmirik. Amma düşmənin gözü kor, qulağı kardır!

Gözünə dönüm, bağrımın başı yaradır! Döz, dur deyən dilim lal olaydı. Ürəyimə daş bağladım, oğul! Qoy atəş səsləri dünyanın lap sonunda eşidilsin! Topunun, tüfənginin odu-alovu dağları, daşları lərzəyə gətirsin!

Azad torpaqlara bayraq asan əlinə, o yerlərin səmasına baxan gözlərinə qurban, əsgərim! Dizin taqətdən, ürəyin təpərdən düşməsin!

Vətənin çörəyi, ana südü halalın olsun deyir, bu ana məktubunu sənə ərməğan iki bənd şeirlə bitirirəm:

*Qoru azad eldə azad gün görən*
*Bu yurdun oğlunu, qızını qoru!*
*Halal süfrəmizə Allah göndərən,-*
*Halalca tikəni, ruzunu qoru,*
*Ey Vətən əsgəri, Vətən əsgəri!*

*Qoru sərhədləri, yolu, körpünü,*
*Necə ki əkinci dəni qoruyar.*
*Qorusan beşikdə yatan körpəni,*
*Bil, Ulu Tanrı da səni qoruyar,*
*Ey Vətən əsgəri, Vətən əsgəri!*

***Rəhilə GÜLGÜN***

Azərbaycan.- 2020.-11 oktyabr.- S.8.